**Ombudsmanların IV Bakı Beynəlxalq Konfransının Bəyanatı**

Biz, Azərbaycan Respublikasının, Rusiya Federasiyasının və Rusiya Federasiyası subyekt1ərinin insan hüquqları üzrə müvəkkilləıi 2006-cı ilin 5-7 may tarixlərində Bakı şəhərində "İnsan hüquqlarının müdafiəsinin təkmilləşdirilməsi məqsədi ilə əməkdaşlığın vəziyyəti və inkişaf perspektivləri" mövzusunun müzakirəsinə yığışmışıq.

Biz inanınq ki, insan hüquqlarının inkişafı istiqamətində atılan hər bir addım demokratikləşmədə və vətəndaş cəmiyyətinin bərqərar olunmasında müstəsna əhəmiyyət daşıyır.

Demokratik inkişaf yolu seçmiş ölkələrdə, o cümlədən Azərbaycan Respublikasında və Rusiya Federasiyasında insan hüquqları artıq milli prioritetə çevrilmişdir.

Xalqlar arasında milli, etnik, dini, mədəni, siyasi, sosial və iqtisadi fərqlər qoyulmadan insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsini ali məqsəd kimi qəbul etmiş ölkələrimizdə milli insan hüquqları institutlarının yaradılması, milli qanunvericiliyin beynəlxalq hüququn ümumqəbul edilmiş normalarına uyğun təkrnilləşdirilməsini, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının müddəalarının milli qanunvericilikdə təsbit edilməsini nəzərə alaraq, dövlət idarəçiliyi sahəsində yeni tələblərə müvafıq islahatların aparılmasını, eyni zamanda dövlətin cəmiyyət qarşısında məsuliyyətinin artırılmasını zəruri hesab edirik.

Ombudsman təsisatlannın rolunun və vəzifələrinin xüsusi əhəmiyyət kəsb etdiyi bir şəraitdə insan hüquqlarının məhkəmədənkənar müdafiəsini həyata keçirən bu təsisatlar bütün imkanlarını insan və vətəndaş hüquq və azadlıqlannın daha etibarlı müdafiəsinə, pozulmuş hüquqların bərpasına və onlann pozulmasının qarşısının alınmasına yönəldir və bu məqsədlə öz fəaliyyətinin səmərəliliyinin yollarını araşdırırlar.

Həmişə ictimaiyyətin diqqət mərkəzində olan, əməkdaşlığın və əlaqəli fəaliyyətin əhəmiyyətinə üstünlük verən ombudsman təsisatları insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyətlərini vətəndaş cəmiyyəti ilə əməkdaşlıq zəminində qurur.

Yalnız hakimiyyətin bütün qollarını və ictimaiyyətin, o cümlədən qeyri-hökumət təşkilatlarının və kütləvi İnformasiya vasitələrinin birgə səyləri ilə insana və insan hüquqlarına olan münasibəti və bu sahədəki vəziyyəti daha da təkmilləşdirmək mümkündür.

Dövlət orqanları ilə işgüzar və davamlı əməkdaşlıq münasibətlərinin qurulması, həmçinin əlaqəli və həmrəy fəaliyyət insan hüquqlarının səmərəli müdafiəsində və pozulmuş insan hüquqlarının bərpa edilməsində ombudsmanlar üçün geniş imkanlar yaradır.

İnsan hüquqlarının müdafiəsi işinin gücləndirilməsi və təkmilləşdirilməsi məqsədi ilə hüquqi maarifləndirməyə, insan hüquqları üzrə təhsilə, elmi-analitik fəaliyyətə və milli qanunvericiliyin təkmilləşdirilməsi üzrə təcrübə mübadiləsinə, insan hüquqlarının müdafiəsinə həsr edilmiş birgə tədbirlərin keçirilməsinə böyük önəm verməli, həmin sahələr üzrə qarşılıqlı əməkdaşlığı genişləndirməli və möhkəmləndirməliyik.

Qanunların aliliyinə hörmət edilməsi, insan hüquqları sahəsində biliklərin əldə olunması, hüquqi mədəniyyətin yüksəldilməsi, qanun qarşısında məsuliyyətin dərk edilməsi, vətəndaş, siyasi, iqtisadi, sosial və mədəni hüquqların müdafiəsi və onlara əməl olunması, günahsız insanların, habelə milli-mənəvi və mədəni dəyərlərin itkisinə, insan hüquqlarının kütləvi şəkildə pozulmasına səbəb olan münaqişələrin sülh yolu ilə həlli məqsədi ilə demokratik proseslərin inkişafına və sosial-iqtisadi tərəqqiyə yönəlmiş səylərimizi daha da gücləndirməliyik.

Milli, irqi və dini zəmində insanların zorakılığa məruz qalmasının qarşısının alınması məqsədi ilə ən zəruri və təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi və bu istiqamətdə hüquq-mühafizə orqanlarında zəruri islahatların aparılması gələcəkdə də prioritet məsələlərdən olacaqdır.

Ombudsman təsisatlarının qarşılıqlı əməkdaşlığa söykənən fəaliyyəti insanların, xalqların və dövlətlərin yaxınlaşmasına, sülhün, ənənəvi dostluq tellərinin və etimadın möhkəmləndirilməsinə yönəldiləcəkdir.

Ombudsman təsisatlarının möhkəmləndirilməsi, insan hüquqlarının müdafiəsi və ona əməl olunması üzrə Birləşmiş Millətlər Təşkilatının, Avropa Şurasının, habelə digər beynəlxalq qurumların, həmçinin Azərbaycan Respublikasının və Rusiya Federasiyasının göstərdiyi səylər bu təsisatların çoxşaxəli fəaliyyəti ilə dəstəklənməli və daha da inkişaf etdirilməlidir.

Biz, Ombudsmanlann IV Bakı Beynəlxalq Konfransının iştirakçıları - Azərbaycan Respublikasının, Rusiya Federasiyasının və Rusiya Federasiyasındakı subyektlərin insan hüquqları üzrə müvəkki1ləri insan hüquqlarının müdafiəsinin təkmilləşdirilməsi sahəsində müntəzəm əməkdaşlığın daha da gücləndirilməsi, qarşılıqlı təcrübə və informasiya mübadiləsinin apanlması, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi, sülh və əminamanlıq, insanların rifahının yüksəldilməsi məqsədi ilə fəaliyyətimizi daha da genişləndirmək əzmindəyik.